AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

ARTİ
AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

MÜTDA
MƏKTƏBƏQƏDƏR VƏ ÜMUMİ TƏHSİL
ÜZRƏ DÖVLƏT AGENTLİYİ

RFM
RESPUBLİKA FƏNN MÜSABİQƏLƏRİ

# Təbiət

## 6-cı sinif

| AD: | SOYAD: |
|---|---|
| MƏKTƏB: | SİNİF: |

- İmtahan müddəti 120 dəqiqədir.
- 1-5-ci suallar 3 bal, 6-20-ci suallar 4 bal, 21-25-ci suallar 5 bal ilə dəyərləndirilir.
- Hər səhv cavab öz dəyərinin $\frac{1}{4}$-ni aparır.
- Qeydiyyat prosesindəki məlumatlarla şagirdə verilən kitabçada hər hansı uyğunsuzluq (fənn, bölmə, sinif) olacağı, eyni zamanda kitabçada texniki qüsur aşkarlandığı təqdirdə, imtahan prosesi yekunlaşmadan, zal nəzarətçisi vasitəsilə imtahan rəhbərinə məlumat verilməlidir.
- Məktəblilərarası fənn müsabiqələrinin nəticələrini portal.edu.az platformasında şəxsi kabinetinizdən və təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.
- Nəticələr 06.05.2025-ci il tarixindən etibarən elan ediləcəkdir.

1. Doğru verilmiş cavabları qeyd edin.
1. Canlıların yaşadıqları mühitə uyğunlaşması üçün qısa müddət tələb olunur
2. Quruluş uyğunlaşması canlıların bədən hissələrində baş verən dəyişkənlikdir.
3. İnsanda baş barmağın eyni əlin bütün barmaqlarına toxuna bilməsi quruluş uyğunlaşmasıdır.
4. Ayıların qış yuxusuna getməsi davranış uyğunlaşmasına aid nümunədir.
5. Köçəri quşlardan olan çöl qazlarının "V" formasında köç etməsi quruluş uyğunlaşmasıdır

A) 1, 2, 3 B) 2, 3, 4 C) 1, 3, 5 D) 2, 4, 5

2. Uyğunluğu müəyyən edin.

| | |
|---|---|
| 1. Maqnitlə təsiretmə | a. qum-su |
| 2. Buxarlandırma | b. dəmir tozu-kükürd |
| 3. Süzmə | c. xörək duzu-su |

A) 1-a, 2-b, 3-c B) 1-b, 2-a, 3-c
C) 1-c, 2-a, 3-b D) 1-b, 2-c, 3-a

3. Uyğunluğu müəyyən edin.

Kimyəvi formul Molekul modeli

1. $CH_4$
2. $CO_2$
3. $NH_3$

a.



b.



c.



A) 1-a, 2-b, 3-c C) 1-c, 2-a, 3-b
B) 1-b, 2-c, 3-a D) 1-b, 2-a, 3-c

4. Doğru ifadəni müəyyən edin.
A) Bütün viruslar patogen orqanizmlərdir.
B) Simptom və əlamət eyni anlayışlardır.
C) Sahib orqanizm patogenlər üçün qida və məskunlaşma yeridir.
D) Göbələklərin birhüceyrəli nümayəndələri olmur

5. Meşələrin qırılması prosesi nəticəsində təbiət hansı növ çirklənməyə məruz qala bilər?
A) səs, işıq B) torpaq, su
C) hava, səs D) işıq, torpaq

6. Ölkəmizdə yaşıl enerji əldə etmək üçün əsasən günəş panelləri, külək turbinləri və su elektrik stansiyalarından istifadə edilir. Bu qurğular işıq enerjisi, küləyin hərəkəti və suyun müəyyən hündürlükdən axını hesabına elektrik enerjisi istehsal edir.
Bu məlumatlara əsasən aşağıdakı enerji dəyişmələrini enerji əldə etmə vasitələri ilə uyğunlaşdırın.
a. Potensial enerji > Kinetik enerji >Elektrik enerji
b. Kinetik enerji > Elektrik enerji
c. İşıq enerjisi > Elektrik enerji
d. Kimyəvi enerji > Elektrik enerjisi
e. İstilik enerjisi > Elektrik enerjisi

1. Günəş panelləri,
2. Külək turbinləri
3. Suelektrik turbinləri

A) 1-a, 2-b, 3-e
B) 1-c, 2-b, 3-a
C) 1-e, 2-c, 3-d
D) 1-c, 2-a, 3-e

7. Balına ondan 750 m qabaqda olan balığın yerinin ondan nə qədər uzaqda olduğunu bilmək üçün səs siqnalları göndərir. Səsin sürətinin 1500 m\s olduğunu bilərək, o siqnal göndərdikdən neçə saniyə sonra balığın yerini müəyyən edəcək?




A) 0,5 B) 1 C) 1,5 D) 2

Fənn müsabiqələri

8. Verilmiş proseslər üçün doğru ifadələri müəyyən edin.



I proses



II proses

1. I proses kimyəvi hadisəni ifadə edir
2. II proses kimyəvi hadisəni ifadə edir
3. II proses fiziki hadisədir
4. I prosesdə başlanğıc molekulları istənilən nisbətdə götürmək olar
5. II prosesdə başlanğıc maddələr öz xassələrini itirir
6. Hər iki proses zamanı yeni maddə əmələ gəlir

A) 1, 4, 6   B) 2, 3, 6   C) 1, 3, 5   D) 2, 4, 5

9. Şüşədən hazırlanan stəkanın istilik keçiriciliyi nisbətən zəif olur. Soyuq stəkana isti (qaynar) su süzdükdə o, çatlayır. Bunun əsas səbəbi nədir?



A) İsti su stəkanın kütləsini artırır və onu zəiflədir, ağırlığın artması onu çatladır.
B) Stəkanın istilik keçiriciliyi zəif olduğundan, daxili səthi tez, xarici səthi isə gec genişlənir və bu fərq stəkanın çatlamasına səbəb olur.
C) İsti su stəkanın kimyəvi tərkibini dəyişir və onu kövrək edir, nəticədə stəkan çatlayır.
D) İsti su stəkanın içindəki havanın təzyiqini artırır və nəticədə o, çatlayır.

10. Məktəblilər qan dövranı ilə əlaqədar şəkildə təsvir olunmuş modeli düzəldirlər. Əvvəlcə 1-ci qabla 2-ci qab arasındakı boru sıxılır. Sonra isə 1-ci qab sıxılır. Bu zaman 1-ci qabdakı maye 3-cü qaba dolur. 1-ci qabla 2-ci qab arasındakı borunu sıxmaqla mayenin 2-ci qab istiqamətində hərəkətinin qarşısı alınır və maye bir istiqamətdə hərəkət edir. Bu tipli mexanizm insan orqanizmində hansı damarlar üçün xarakterikdir?




A) Arteriya damarları   B) Vena kapilyarları
C) Arteriya kapilyarları   D) Vena damarları



11. Diafraqma haqqında verilən fikirlərdən hansı yanlışdır?
1. Diafraqma yalnız məməlilərdə rastlanan orqandır.
2. Difraqma əzələli orqandır.
3. Diafraqma qan dövranında iştirak edir.
4. Diafraqmadan yuxarıda qaraciyər, ağciyərlər və ürək yerləşir.
5. İnsanda diafraqma yırtılarsa, nəfəsalma çətinləşər.

A) 1, 2, 5   B) yalnız 2, 5   C) yalnız 3,4   D) 1, 3, 4

12. A, B, C və D-nin süzgəc kağızı üzərində xromatoqrafiya nəticələri təsvir edilmişdir.




Cədvəlin hansı sətrinə işarələr doğru yazılıb?

| | İfadə | Doğru | Səhv |
|---|---|---|---|
| a. | A  B və D-nin qarışığıdır | ✓ | |
| b. | D  B və C-nin qarışığıdır | | ✓ |
| c. | B  saf maddədir | ✓ | |

A) yalnız a  B) yalnız b  C) a və b  D) b və c

13. Papaqlı göbələkləri papaqlarının alt hissəsinin quruluşuna görə qruplaşdırsaq, onları necə adlandırmaq olar?
A) meyvəli və meyvəsiz  B) lövhəcikli və borucuqlu
C) borulu və lentşəkilli  D) sporlu və sporsuz

14. Mikroskopla müşahidə edərkən formalarına görə bir-birindən fərqlənən bakteriya hüceyrəsi görmək mümkündür. Uyğunluğu müəyyən edin.
a. Spirilla  b. Basil
c. Vibrion  d. Kokk




A) 1-a, 2-b, 3-c, 4-d;  B) 1-b, 2-d, 3-c, 4-a;
C) 1-c, 2-b, 3-d, 4-a;  D) 1-c, 2-d, 3-b, 4-a;

15 və 16-cı sualları aşağıdakı şəkillər əsasında cavablandırın.



15. Şəkildə verilmiş canlılardan neçəsi həm yırtıcı, həm də şikardır?
A) 1  B) 2  C) 3  D) 4

Fənn müsabiqələri

16. Doğru cavabı müəyyən edin.

| | Neçə onurğalı heyvan saymaq olar? | Neçə onurğasız heyvan saymaq olar? | Onurğalıları neçə fərqli qrupda qruplaşdırmaq olar? | Onurğasızları neçə fərqli qrupda qruplaşdırmaq olar? |
|---|---|---|---|---|
| A) | 3 | 4 | 3 | 4 |
| B) | 2 | 5 | 2 | 5 |
| C) | 4 | 3 | 4 | 3 |
| D) | 3 | 4 | 3 | 3 |

17. İnsanda səs telləri harada yerləşir?
A) qırtlaqda  B) nəfəs borusunda
C) ağız boşluğunda  D) ağciyərlərdə

18. Yer kürəsinin daxili quruluşuna aid yanlış ifadə hansıdır?
A) Yer kürəsi yer qabığı, mantiya və nüvə qatlarından ibarətdir.
B) Litosfer tavaları müxtəlif istiqamətlərdə hərəkət edir.
C) Daxili təbəqələrdən ən az qalınlığa malik olan qat mantiyadır.
D) Yer qabığı və mantiyanın üst hissəsi birlikdə litosferi əmələ gətirir.

19. Kaliforniyadakı bir məntəqəyə aid verilmiş qrafikə əsasən aşağıdakı düzgün bəndi seçin.




A) Qış aylarının orta temperaturu digər aylara görə çoxdur.
B) Fiziki aşınma prosesi üstünlük təşkil edir.
C) İllik düşən yağıntıların miqdarı çoxdur.
D) Məntəqə cənub yarımkürəsində yerləşir.

20. Sxemdə təsvir olunan Günəş, Yer kürəsi və Ayın fırlanmasının nəticələrinə uyğun olmayan bənd hansıdır?




A) Yerin öz oxu ətrafında fırlanması nəticəsində gecə-gündüz yaranır.
B) Yer kürəsi Günəş ətrafında bir tam dövrünü 1 ilə başa vurur.
C) Fırlanarkən Ay Yer kürəsinin kölgəsində qalarsa, Ay tutulması baş verir.
D) Sutka ərzində Günəş şüaları Yer kürəsinin hər tərəfini eyni vaxtda işıqlandırır.

21. Sakit halda orta yaşlı insan 1 dəqiqədə 16 tənəffüs hərəkəti edir. Hər dəfə ağciyərlərə 500 $sm^3$ atmosfer havası daxil olur. 30 saniyədə qana keçən oksigenin miqdarı neçə $sm^3$ olar?

A) 200 $sm^3$ B) 25 $sm^3$ C) 500 $sm^3$ D) 4000 $sm^3$

22.

| Temperatur, °C | 100 ml suda həll olan şəkərin kütləsi, q |
|---|---|
| 20 | 203 |
| 40 | 238 |
| 60 | 287 |
| 80 | 362 |

Müəyyən temperaturda 200 ml suya 595 q şəkər əlavə edilir və doymuş məhlul alınır, bir qədər şəkər qabın dibinə çökür. Bu qarışığa həmin temperaturda 50 ml su əlavə etdikdə homogen doymuş məhlul əmələ gəlir. Suyun temperaturunu müəyyən edin.

A) 40°C B) 20°C C) 60°C D) 80°C

Fənn müsabiqələri

23. Azərbaycan COP29 konfransından sonra yaşıl enerji istehalını daha da artırmağı hədəfləyir. Ölkəmizdəki yaşıl enerji ehtiyyatlarından biri də külək enerjisidir.
Külək enerjisindən illik mütəmadi və səmərəli enerji əldə edilməsi üçün küləyin kifayət qədər sürətli və sabit olması vacibdir.
Verilmiş qrafiklərdə bir il ərzində dörd müxtəlif ərazidə küləyin orta sürətləri təsvir olunmuşdur. Qrafiklərə əsasən hansı ərazidə külək elektrik stansiyası inşa etmək daha səmərəli olar?




24. m kütləli cisim maili taxtada səth boyunca aşağı doğru sürüşür. Ona təsir edən sürtünmə və ağırlıq qüvvələri hansı variantda düzgün təsvir olunub?




A)  B) 

C)  D) 

25. Cədvəldə Yaponiya və Haitidə baş vermiş təbii fəlakətin statistikası verilmişdir.

| zəlzələnin baş verdiyi şəhər | Kobe (Yaponiya) | Port Prins (Haiti) |
|---|---|---|
| zəlzələ saatı | 03:46 | 16:53 |
| zəlzələ ocağı | 16 km | 12 km |
| zəlzələnin gücü (Rixter şkalası) | 7.2 | 7.2 |
| ölənlərin sayı | 6434 | 220000 |
| yaralananların sayı | 40000 | 300000 |
| dağılan evlərin sayı | 316000 | 895000 |

Cədvəldəki məlumatlara əsasən aşağıdakı düzgün bənd hansıdır?

A) Kobe şəhərində zəlzələnin gecə baş verməsi ölənlərin sayını digər şəhərə görə artırmışdır.
B) Port Prins şəhərində zəlzələnin gücü Rixter şkalasına görə daha çoxdur.
C) Zəlzələnin təsirlərini aradan qaldırmaq üçün Yaponiya dövləti daha çox vəsait xərcləməlidir.
D) Port Prins şəhərində binaların zəlzələyə davamlı olmamasına görə yaralananların sayı çoxdur.

Fənn müsabiqələri